# TƏLTİF VƏ MÜKAFATLARI

## *"Türk Dünyasında İlin Ziyalısı" Beynəlxalq Diplomu və "Qızıl Ulduz" Medalı (2024)*




Yazıçı-publisist Yunus Oğuz müstəqil Azərbaycan Respublikasının mədəniyyətinin inkişafındakı xidmətlərini nəzərə alaraq Türkiyənin Ankara şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası 2023-cü ilin nəticələrinə görə Akademiyanın "Türk Dünyasında İlin Ziyalısı" Beynəlxalq Diplomu və "Qızıl Ulduz" Medalı ilə təltif edilmişdir.

## "Turan Birimdiqi" medalı (2023)

Yazıçı - publisist, tarixi romanlar yazarı Yunus Oğuz Orta Asiyanın Xalq diplomatiyasının Elitar İttifaqının və Orta Asiya xalqlarının ədəbiyyat və tarix təşkilatı olan "Yanqi Ovoz" Mərkəzi Asiya Yazıçılar və Tarixçilər Birliyi tərəfindən "Turan birimdiqi" medalı ilə təltif olunub.






Azərbaycan Yazıçılar Birliyində yazıçı Elçin Hüseynbəylinin aparıcılığı ilə keçirilən tədbirdə Səlim Babullaoğlu və Qəşəm Nəcəfzadə də bu medalla təltif olunub.

Mükafat Mərkəzi Asiyanın "Amir Teymur" beynəlxalq xeyriyyə fonduna aiddir.

## *TÜRKSOY Çingiz Aytmatov adına medalı (2022)*



Azərbaycan Yazıçılar Birliyində 2022-ci il 26-28 may tarixlərində keçirilən I Türk Dünyası və Ədəbiyyat Festivalının iştirakçıları və festivalın təşkilində əməyi keçən şəxslər mükafatlandırılıb.

Tədbirdə bir sıra yazıçı-publisist, media nümayəndələri, tələbələr və ASAN Xidmət könüllüləri müxtəlif kateqoriyalar üzrə mükafatlandırılıb.

Tədbir dəyərli xalq yazıçımız Anarın çıxışı ilə başlayıb. O iştirakçılara festival müddətində göstərdikləri xidmətə görə təşəkkür edib və Azərbaycan Yazıçılar Birliyinin mətbuat xidmətinin rəhbəri və I Türk Dünyası və Ədəbiyyat Festivalının təşkilatçısı Xəyal Rzaya "Bəxtiyar Vahabzadə" mükafatını təqdim edib.

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, yazıçı-publisist Rəşad Məcid, tənqidçi İntiqam Qasımzadə, Nizami Tağısoy Türksoy tərəfindən "Molla Pənah Vaqif" medalı, əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli, yazıçı-publisist Yunus Oğuz "Çingiz Aytmatov" medalı, gənc şair Ramil Əhməd "Aşıq Veysəl" medalı ilə təltif olunub.

### *"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı (2019)*



Yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuz 2019-cu ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub.

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalı əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 1 may 2018-ci il tarixli fərmanı ilə təsdiq edilmişdir.

### *Turan Elmlər Akademiyasının akademiki (2019)*

Azərbaycan yazıçısı, türkoloq alim, tarixi romanlar müəllifi Yunus Oğuz Özbəkistanın "Turan" Akademiyasının akademiki seçilib.

Bu haqda qərar akademiyanın Elmi Şurasının iclasında qəbul edilib.

İclasda bildirilib ki, Yunus Oğuz Özbəkistanda elə ilk kitabı -"Əmir Teymur" romanı ilə məşhurlaşıb. O, özbək tarixi ilə bağlı elə bir kitab ortaya qoyub ki, onu sevməmək mümkün deyil.

Sonra Daşkənddə "Şah arvadı və cadugər", "Sultan Alp Arslan", "Atabəy Eldəniz" romanları çap olunub və populyarlıq qazanıb.

Bu romanların işıq üzü görməsində və yayılmasında Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin də rolu böyükdür.

### *"Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin fəxri fərmanı (2018)*


"Ўзбекистон – Озарбайжон" дўстлик жамияти
Общество дружбы «Узбекистан-Азербайджан»

ОБЩЕСТВО ДРУЖБЫ «УЗБЕКИСТАН-АЗЕРБАЙДЖАН»

НАГРАЖДАЕТ

ПОЧЕТНОЙ ГРАМОТОЙ

ЮНУС ЎҒУЗ

за активное участие в углублении литературных отношений между двумя странами, за пропаганду узбекской литературы, истории и вклад в дело укрепления дружеских отношений между народами Узбекистана и Азербайджана

Председатель Общество дружбы «Узбекистан-Азербайджан» Ш.Шарипов

5 июня 2018 года

2018-ci ildə tanınmış yazıçı, tarixi romanlar müəllifi Yunus Oğuz iki ölkə arasında ədəbi əlaqələrin dərinləşməsinə, özbək tarixinin, ədəbiyyatının fəal təbliğinə, habelə xalqlar arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə verdiyi töhfələrə görə "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin fəxri fərmanı ilə təltif edilib. Fəxri fərmanı cəmiyyətin sədri, Nizami Gəncəvi adına Daşkənd Dövlət Pedaqoji Universitetinin rektoru, professor Şavkat Şaripov imzalayıb.

***"Əməkdar mədəniyyət işçisi" (2010)***




2010-cu ildə tarixi romanlar müəllifi, yazıçı, publisist Yunus Oğuz "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi — mədəniyyətin inkişafında xüsusi xidmətlərinə görə mədəni-maarif müəssisələrinin, qəzet və jurnal redaksiyalarının, nəşriyyatların, kitab ticarətinin, poliqrafiya müəssisələrinin, televiziyanın, radio verilişlərinin, kinonun, turist-ekskursiya təşkilatlarının, idarələrinin işçilərinə, bədii özfəaliyyət iştirakçılarına və mədəniyyət idarələri və təşkilatları sisteminin digər işçilərinə mədəniyyət sahəsində azı iyirmi il işlədikdə verilən fəxri addır.

Fəxri ad Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 22 may 1998-ci ildə təsis olunmuşdur.

***Tərəqqi medalı (2005)***




Yunus Oğuz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan milli mətbuatının 130 illiyi münasibətilə Azərbaycan jurnalistikasının inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalına layiq görülmüşdür.

"Tərəqqi" medalı 1992-ci ildə təsis edilmişdir. Heydər Əliyevin 1993-cü il 6 dekabr tarixli 758 saylı Qanunu ilə medalın əsasnaməsi və təsviri təsdiq edilib.